

# XUDAFƏRİN

"Xudafərin harayından qalan mən!.."

Qəzet 1932-ci ildən çıxır № 11-12 (6787-6788) 18 oktyabr 2017-ci il Cəbrayıl RİH-nin orqanı


# 18 OKTYABR DÖVLƏT MÜSTƏQİLLİYİ GÜNÜDÜR

## Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib



***Bu il Azərbaycan tarixində ciddi iqtisadi islahatlar ili kimi qalacaq. İstər beynəlxalq sahədə, istər daxili siyasətlə, iqtisadi siyasətlə bağlı bütün istiqamətlər üzrə çox gözəl nəticələr var.***

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Oktyabrın 9-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib.**

**Dövlət başçısı iclası giriş nitqi ilə açdı.**

**Sonra təhsil naziri Mikayıl Cabbarov, "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov, Bakı Nəqliyyat Agentliyinin baş direktoru Vüsal Kərimli məruzələrlə çıxış etdilər.**

**Azərbaycan Prezidenti iclasda yekun nitqi söylədi.**

■ Doqquz ayda iqtisadi göstəricilərimiz də çox müsbətdir. Qeyri-neft iqtisadiyyatımız 2,5 faiz artıb.

■ Qeyri-neft sənayesi 9 ayda 3,1 faiz artmışdır. Bu da sənayeləşmə siyasətimizin gözəl nəticəsidir.

■ Kənd təsərrüfatının hərtərəfli inkişafı dövlət prioritetidir və bu sahədə də nəticələr özünü göstərir. Kənd təsərrüfatı 2,8 faiz artmışdır.

■ İlin 9 ayında xarici ticarətin müsbət saldosu 4,4 milyard dollara bərabərdir. Əminəm ki, ilin sonuna qədər bu rəqəm daha da artacaq.

■ Azərbaycanın valyuta ehtiyatları artıb, hazırda bu rəqəm 42 milyard dollar səviyyəsindədir. İlin əvvəlindən valyuta ehtiyatlarımız 4,5 milyard dollar artıb. Bu 9 ayın ən uğurlu nəticələrindən biridir.

■ Həm Bakıda, həm bölgələrdə yeni iş yerlərinin yaradılması prosesi uğurla gedib. Həmin dövrdə 226 min yeni iş yeri yaradılıbdır ki, onlardan 171 mini daimi iş yeridir.

■ Əsas infrastruktur layihələri 9 ayda uğurla icra edilibdir. Yeddi yüz kilometrdən çox içməli su xətti çəkilib, qazlaşdırma ölkəmizdə 93 faiz səviyyəsindədir və bu proses davam edir.

■ Məcburi köçkünlərin problemləri daim diqqət mərkəzindədir. Bu il tarixi hadisə baş vermişdir. Cocuq Mərcanlı kəndi bərpa edilmişdir, indi orada yeni qəsəbə salınır, 50 evdən ibarət qəsəbənin açılışı olmuşdur, əlavə 100 evin tikintisi prosesi gedir. Məktəb, məscid tikilib, tibb mərkəzi tikilməkdədir. Orada iş yerləri ilə bağlı bir çox məsələlər öz həllini tapır. Cocuq Mərcanlı kəndinin yenidən qurulması, bərpası tarixi hadisədir. 250 mindən çox məcburi köçkün dövlət tərəfindən evlərlə, mənzillərlə təmin edilmişdir.

■ Bu ilin doqquz ayında mənim xarici ölkələrə 14 səfərim olmuşdur. Hələ ilin qalan hissəsində də səfərlər nəzərdə tutulur. Bu səfərlərin hər biri ölkəmiz üçün faydalı olmuşdur. Azərbaycan öz mövqeyini birbaşa xarici tərəfdaşlara çatdırır. Rəsmi səfərlərdə və beynəlxalq tədbirlərdə etdiyim çıxışlar Azərbaycanın siyasətini əks etdirir, əldə etdiyimiz uğurları, eyni zamanda, Dağlıq Qarabağ problemini də bir daha dünya ictimaiyyətinə çatdırır.

■ Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyimiz dəyişməz olaraq qalır. Bu mövqe dünyanın ən ali tribunalarından açıq bəyan edilmişdir. Dağlıq Qarabağ bizim tarixi, əzəli torpağımızdır, biz bu torpaqlara qayıtmalıyıq və qayıdacağıq. Ölkəmizin ərazi bütövlüyü danışıqların predmeti deyil və heç vaxt olmayacaq. Biz torpaqlarımızda ikinci erməni dövlətinin yaradılmasına heç vaxt imkan verməyəcəyik və ərazi bütövlüyümüzün bərpası bizim əsas vəzifəmizdir.

## Cocuq Mərcanlıdan xəbərlər

**15 sentyabr 2017- ci il tarixdə Novruz Aslanov adına Cocuq Mərcanlı kənd tam orta məktəbində Bilik günü ilə əlaqədar tədbir keçirilmişdir.**

Tədbirdə Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri cənab Əli Həsənov, Cəbrayıl rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov, Xocavənd rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov, Təhsil Nazirliyinin idarə rəisi, ümumtəhsil məktəbləri üzrə şöbə müdiri Aydın Əhmədov, Türkiyə və Azərbaycan İş Adamları və Sənayeçilər İctimai Birliyinin sədri Ali İhsan Genc, Qaçqınların və



Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Cəbrayıl rayon İcra hakimiyyətinin məsul işçiləri, Məcburi Köçkünlərun Sosial İnkişaf Fondunun rəhbərliyi, kəndin tikintisində iştirak etmiş inşaat təşkilatlarının rəhbərləri iştirak edirdilər.

Tədbir Biləsuvar Regional Mədəniyyət və Turizm İdarəsinin Cəbrayıl rayonu üzrə nümayəndəliyinin musiqi məktəbi və rayon mədəniyyət evinin birgə hazırladığı konsert proqramının nümayişi ilə başladı. Böyük Mərcanlı Uşaq-İncəsənət Musiqi məktəbinin Məhəbbət Süleymanovun bədii rəhbərliyi altında çıxış edən ansamblı dəfələrlə alqışlarla qarşılandı. Tanınmış bədii qiraət ustası Telman Salmanoğlunun aparıcılığı ilə baş tutan geniş konsert proqramında Aqşin Tarıyeloğlunun ifasında səslənən musiqi nömrələri, müğənnilərdən Vüsal Zamanovun, Elman Məmmədovun, Zəminə Hüseynovanın ifa etdikləri mahnılar tədbir iştirakçılarında xoş ovqat yaratdı.

Bədii hissə başa çatdıqdan sonra məktəbin direktoru Zamiq Həziyev tədbirin rəsmi hissəsini açaraq iştirakçıları salamladı və 15 sentyabr "Bilik günü" münasibəti ilə məktəbin şagirdlərini, valideynləri, ümumilikdə Cocuq Mərcanlı kəndinin sakinlərini və tədbir iştirakçılarını təbrik etdi. Sonra Cocuq Mərcanlı kəndinin sakini, şəhid Novruz Aslanovun atası Fazil Aslanov, Cocuq Mərcanlı kənd tam orta məktəbin müəllimi Səidə Quliyeva, Türkiyə və Azərbaycan İş Adamları və Sənayeçilər İctimai Birliyinin sədri Ali İhsan Genc, Təhsil nazirliyinin şöbə müdiri Aydın Əhmədov, Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri cənab Əli Həsənov çıxış edərək yeni dərs ili münasibəti ilə məktəbin müəllim və şagird kollektivini təbrik etdilər, şagirdlər Vətənə, Qarabağa, Lələtəpə uğrunda döyüşlərdə göstərilən qəhrəmanlıqlara həsr olunmuş şeirlər söylədilər.

Yeni dərs ilinin başlandığını bildirən ilk zəng çalındıqdan sonra tədbir iştirakçıları məktəblə tanış oldular.

**(Davamı səh. 3-də)**

"Xudafərin harayından qalan mən!.."
XUDAFƏRİN



# Cəbrayıl rayonunda 2017-ci ilin üçüncü rübünün sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş şura iclası

17 oktyabr 2017-ci il tarixdə Cəbrayıl rayon İcra Hakimiyyətinin akt zalında rayonda 2017-ci ilin üçüncü rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş şura iclası keçirilmişdir.

İclasda Cəbrayıl rayon İcra Hakimiyyətinin Başçısı Kamal Həsənov, Şura üzvləri, rayonun hüquq mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri, icra nümayəndələri, məktəb direktorları və ictimaiyyət nümayəndələri iştirak edirdilər.

Cəbrayıl rayon İcra Hakimiyyətinin rilmişdir.

Keçən il rayon üzrə 34 hektar, bu il isə 25 nəfər istehsalçı 71.8 hektar sahəyə pambıq əkmiş, Ölkə başçısının Sərəncamı ilə təsdiq edilmiş "Pambıqçılığın inkişafı ilə bağlı Dövlət proqramı"na uyğun olaraq gələn il rayonda bu ilkindən 2 dəfə çox pambıq əkilməsi nəzərdə tutulur.

Pambıq sahələrində normal qaydada aqrotexniki becərmə işləri aparılmış, sahələrə 2 dəfə azotla yemləmə gübrəsi verilmiş və orta hesabla 3 dəfə suvarılma aparılmış, maşınla yığılması nəzərdə tu-



ti başçısının geniş hesabat məruzəsində cari ilin 9 ayında rayonda görülmüş işlərlə bağlı ətraflı məlumat verilmiş, qeyd edilmişdir ki: Cari ilin 9 ayında keçən ilin müvafiq dövrünə nisbətən 2.4 dəfə çox olmaqla 27 milyon 308 min manatlıq ümumi daxili məhsul olmuş, o cümlədən 11.3 faiz çox olmaqla 10 milyon 803.4 min manatlıq kənd təsərrüfatı məhsulları, 3 milyon 253.6 min manatlıq (7.1 dəfə çox) sənaye məhsulu istehsal olunmuş, 13 milyon 158.8 min manatlıq (10.5 dəfə çox) tikinti işləri, 75.6 min manatlıq rabitə, 16.6 min manatlıq nəqliyyat işləri görülmüşdür.

İlin 9 ayında rayon üzrə 258 nikah qeydə alınmış, 81 boşanma olmuş, doğulan 283 artaraq 841 nəfər, ölən 284 nəfər, rayonun qeydiyyatına gələn 211 nəfər, qeydiyyatdan çıxanlar 41 nəfər olmuşdur. Ümumilikdə ilin əvvəlindən bəri 557 nəfər təbii artım, 170 nəfər isə miqrasiya artımı olmuş, rayon əhalisinin sayı 79693 nəfərə çatmışdır. Əhlinin sayı müvafiq dövrə nisbətən 973 nəfər və ya 1,2 faiz artmışdır.

2017-cı ilin 9 ayında rayon büdcəsinin gəlir və xərclərin icrası mədaxil üzrə 1911.6 min manat proqnoza qarşı 1493.6 min manat və ya 78.1 faiz, məxaric üzrə 1927.3 min manat proqnoza qarşı 1358.0 min manat və ya 70.1 faiz yerinə yetirilmişdir. Mədaxilin 570 min manatı Maliyyə Nazirliyindən verilən dotasiya, 919.8 min manatı isə yerli gəlirlərdən daxil olmuşdur. 9 ay üzrə yerli gəlirlər 730.3 min manat proqnoza qarşı 919.8 min manat və ya 125.9 faiz yerinə yetitulan sahələrə lazımi preparatlar vurularaq yığıma hazır vəziyyətə gətirilmişdir.

16 oktyabr vəziyyətinə görə rayon üzrə 116.2 ton pambıq yığılmış və115.0 ton MKT-nin İmişli filialına təhvil verilmişdir.

Hazırda sahələrdə məhsul boldur, qısa müddət ərzində pambığın yığılaraq tədarük təşkilatına təhvil verilməsi üçün iş aparılır.

Eyni zamanda rayonda baramaçılığın inkişaf etdirilməsi məqsədi ilə keçən il 8-9-10-11 saylı qəsəbələrin kənarında 14 min tut tingi əkilmişdir. Bu il isə rayona 41 min yerli, 6 min isə Çin Xalq Respublikasından gətirilmiş tut tinglərinin verilməsi nəzərdə tutulmuşdur.

Cari ilin 9 ayında rayon üzrə bu il 61 hektar tərəvəz, 4 hektar bostan, 2,5 hektar şəkər çuğunduru, 16,7 hektar dən üçün qarğıdalı və 151 hektar təkrar qarğıdalı əkilmişdir. Mövsümdə 63 ton və ya ötən ildəkindən 18 ton çox tərəvəz yığılmış və sahələrdə yığım davam edir.

Hazırda rayon üzrə 10482 baş iri buynuzlu, 115470 baş xırda buynuzlu heyvan mövcuddur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə iri buynuzluların sayı 155 baş, xırda buynuzluların sayı 1366 baş artmışdır.

Məruzə ətrafında Dövlət Sosial Müdafiə Fondunun Cəbrayıl raon şöbəsinin müdiri Akif Məmişov, Cəbrayıl Elektrik şəbəkəsinin müdiri Yusif Həşimov çıxış edərək 2017-cı ilin doqquz ayında rəhbərlik etdikləri sahələrdə görülmüş işlər barədə məlumat verdilər.

*"Xudafərin"*

# Gənclərimiz hərbi xidmətə yollanırlar

## Həmsöhbətim Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Cəbrayıl rayon bölməsinin rəisi polkovnik-leytenant Anar Ələkbər oğlu Rəhimovdur

*Hərbi xidmətə çağırışla əlaqədar olaraq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Cəbrayıl rayon bölməsinin Bakı şəhərində fəaliyyət göstərdiyi binanın qarşısında çağırışçı gənclərimizin dəstə halında yığışdığını gördüm. Fikir-xəyal məni özü ilə çəkib uzaqlara apardı. Bir vaxtlar mən də belə gənc idim. Onda Cəbrayıl rayonunun mərkəzində yerləşən rayon Hərbi Komissarlığının binası qarşısına toplaşmışdıq. Komissarlığın işçisi bizi avtobuslara yığıb Bakı şəhərinə - Biləcəri stansiyasına gətirmişdi. Biz də Bakıdan aeroporta, ordan da samolyotla keçmiş İttifaqın müxtəlif şəhərlərinə hərbi xidmət keçməyə yollanmışdıq... Bakı şəhərindən vaqonlara doluşub ayrı-ayrı müttəfiq respublikaların ərazisinə hərbi xidmət etməyə də yola düşürdülər. Amma mənim qismətimə qatarla yox, samolyotla Kuybışevə, indiki Samara şəhərinə, ordan da iki günə qatarla Qazaxıstana getmək, orda xidmət etmək düşmüşdü...*

Elə bu duyğu-düşüncələrlə də komissarın qapısını döydüm, otağa girib əhvallaşandan sonra söhbətə keçdim:

**- Cənab komissar, həyətdə açıq-aşkar bir canlanma hiss olunur...**

Sanki elə bu sözlərimə bənd imiş kimi komissar sözümü ağzımda yarımçıq kəsdi:

-Elədir, Şakir müəllim. Çağırış gününün elə ilk günündən bu cür izdiham qaynaşır. Çağırışçılarımızda bu gün ordu sıralarına yollanmaq həvəsi, hərbi vətənpərvərlik əhval-ruhiyyəsi çox güclüdür. Bu hal bizi də çox sevindirir ki, gənclərimizdə doğma vətəni qorumaq hissi çox yüksək səviyyədədir.

**- Anar müəllim, bu günkü gənclərimiz doğma dədə baba yurdları olan Qarabağda və elə o cümlədən də Cəbrayılda olmayıblar. Bu amil onlara psixoloji ovqat olaraq hansı təsir göstərir?**

- 2016-cı ilin aprel döyüşləri uzaq zamanda baş verməyib. Hamımız xatırlayırıq. O vaxta qədər çoxları belə zənn edirdi ki, Qarabağda doğulmayan, Qarabağı görməyən uşaqlar hərbi xidmət keçərkən döyüşlərə o qədər də cani-dildən atılmazlar. Amma biz belə bir düşüncənin özünü doğrultmadığının şahidi olduq. O zaman döyüşlərdə şəhid olanların da çoxu bu cür gənclər idi. Vətənpərvərlik hissinin güclü olması gənclərimizdə belə əzmkar döyüş hünəri göstərməyə, düşmənə layiqli hərbə-hədə göstərməyə səbəb oldu...

**-Onda belə çıxır ki, bu gün ordu sıralarına yollananlarımız da eyni coşğun əhvalla vətəni qorumağa, daha doğrusu, vətəni işğalçılardan azad etməyə həvəs göstərirlər?..**

-Əlbəttə, mənə belə gəlir ki, Aprel döyüşlərinin ab-havası hələ də səngiməyib. Cənab prezidentimiz humanistlik edib, o vaxt atəşkəs yaratdı. Yaratdı ki, bəlkə işğalçı Ermənistan öz ordusunu xoşaxoşluqla zəbt elədiyi torpaqlarımızdan çıxartsın, nahaq qanlar axıdılmasın. Ancaq mən belə hesab edirəm ki, indi gənclərimiz ölkə başçısının, Ali Baş Komandanımız İlham Əliyev cənablarının hər hansı bir döyüş əmrinə müntəzir dayanıblar ki, şanlı Aprel döyüşlərinin davamını gətirsinlər, işğal olunmuş digər ərazilərimizi də işğalçılardan təmizləsinlər...

**- Cənab komissar, həmin döyüşlərin nəticəsində strateji əhəmiyyətli Lələtəpə yüksəkliyinin ələ keçirilməsi sayəsində rayonumuzun Cocuq Mərcanlı kəndində əhalinin qayıdıb rahat yaşayışı bərpa olundu. Bu gün hər bir Cəbrayıllı gəncin öz kəndinin işğalçılardan azad olunmasını arzulaması da təbii haldır...**

-Əlbəttə. Çağırışa gələn gənclərlə komissarlığımızın işçiləri, həmçinin həqiqi hərbi xidmətə çağırış üzrə zabit, leytenant Xəzər Mustafayev ünsiyyətdə olarkən, onlara izah edirlər ki, bu gün əsarətdə qalan yurd yerlərimizin azad olunması da onlardan asılıdır. Çünki bizim torpaqlarımızı kənardan, başqa ölkələrdən gələn əcnəbilər xilas etməyəcək, bizim torpaqlarımızı bizim özümüz- Azərbaycan vətəndaşları, Milli Ordumuzun əsgərləri azad edəcəklər. O əsgərlər isə məhz sizsiniz. Bu səpkidə təbliğat-təşviqat xarakterli söhbətlərimiz zamanı çağırışçı gənclər özləri də bunu başa düşdüklərini söyləyir, bildirirlər ki, onlar hərbi xidmətə elə belə bir şərəfli missiyanı daşımaq üçün gedirlər...

Yeri gəlmişkən onu da diqqətə çatdırım ki, oktyabrın 26-da çağırışçılarımızın Füzuli rayonunun çağırışçıları ilə birlikdə Cocuq Mərcanlı kəndindən təntənəli şəkildə hərbi xidmətə yolasalma mərasimi olacaq. Bu özü də düşmənə bir mesajdır. Bu, həm də gənclərimizdəki qələbə əzmimizi artırmaq üçün bir ruhverici stimuldur.

**- Anar müəllim, Azərbaycanın artıq dünyada tanınmış güclü ordusu var.. Bu ordunun tərkibinə yollananlar da yəqin ki, artıq bunu yaxşı dərk edib, anlayırlar?..**

- Bəli, Şakir müəllim, bu gün əsgərliyə yola düşən gənclərimiz də məhz güclü bir ordunun sıralarına qoşulmaqdan qürur duyurlar. Onlar əmindirlər ki, rəşadətli Azərbaycan ordusu torpaqlarımızı azad etməyə tam qadirdir və belə bir ordunun əsgərləri kimi ordu sıralarına yüksək coşqu ilə, böyük ruh yüksəkliyilə yollanırlar. İnşallah, o arzu olunan gün tezliklə gələcək, torpaqlarımız erməni işğalçılarından ordumuzun yenilməz gücü sayəsində azad olunacaq. Biz bu gün əsgəri xidmətə yollanan çağırışçılarımızın da simasında bu əhval-ruhiyyəni görürük.

- Maraqlı söhbət üçün çox sağ olun, cənab komissar.

-Siz də sağ olun.

*Söhbətləşdi:*
**Şakir Əlifoğlu**

# "Canımız Qarabağ, yazımız Qarabağ"



27 sentyabr 2017-ci il tarixdə 4 saylı qəsəbə klubunda Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının və Azərbaycan Yazarlar Klubu İctimai Birliyinin təşkilatçılığı ilə "Canımız Qarabağ, yazımız Qarabağ" layihəsi çərçivəsində rayon ziyalıları, gənclər və ictimaiyyətin müxtəlif təbəqələrinin nümayəndələri ilə görüş keçirilmişdir.

Görüşdə layihənin rəhbəri, Azərbaycan Yazıçılar Birliyinin müşaviri, Azərbaycan Yazarlar Klubunun sədri, yazıçı-dramaturq Elçin Hüseynbəyli, Azərbaycan Yazıçılar Birliyinin nümayəndələri, şair İlqar Türkoğlu, şairə Gülhamayıl Murad, "Ulduz" jurnalının şöbə müdiri şairə Fərqanə Mehdiyeva və bəstəkar-şair Zəka Vilayətoğlu iştirak etmişlər.

Elçin Hüseynbəyli layihənin məqsədi barədə məlumat verib, bildirmişdir ki, layihə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının qrantı əsasında keçirilir və Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev və onun xanımı, birinci vitse-prezident Mehriban xanım Əliyevanın keçən ilin aprel savaşından sonra cəbhə bölgələrinə səfərinin ardınca ordumuza dəstək və Qarabağ uğrunda müqəddəs savaşımıza yazarlar tərəfindən töhfə vermək məqsədi daşıyır.



Yazıçı onu da vurğulamışdır ki, "Canımız Qarabağ, yazımız Qarabağ" şüarı da təsadüfi seçilməyib. "Yazımız" deyəndə həm ordumuzun aprel (Yaz) zəfəri, həm də qələmlə, sözümüzlə düşmənə qarşı vuruşmaq nəzərdə tutulur.

Bakıdan gələn qonaqlar - şair İlqar Türkoğlu, şairələr Gülhamayıl Murad və Fərqanə Mehdiyeva, bəstəkar-şair Zəka Vilayətoğlu, cəbrayıllı şairlərdən Musa Astanxanlı, Hidayət Səfərli, Mirzə Mirimli və Kamal Fərhad çıxış edərək öz şerlərini səsləndirmişlər.

Tədbir iştirakçıları yekunda əmin olduqlarını bildiriblər ki, tezliklə torpaqlarımız işğaldan azad olunacaq və Cəbrayıl torpağı yenidən güllü-çiçəkli diyara çevriləcək.



Görüşün sonunda Elçin Hüseynbəyli layihənin gerçəkləşməsində göstərdikləri dəstəyə görə Azərbaycan Respublikası Prezidenti Administrasiyasına, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının rəhbərliyinə və Cəbrayıl Rayon İcra Hakimiyyətinin Başçısına təşəkkürünü bildirmişdir.

Tədbirin axırında yazarlar Cəbrayıl rayon Mərkəzi Kitabxanasına öz kitablarını hədiyyə etdilər və xatirə şəkli çəkdirdilər.

**HİDAYƏT SƏFƏRLİ**

# Cocuq Mərcanlıdan xəbərlər

**Binəqədililərin Cocuq Mərcanlı səfəri**

Sentyabrın 6-da Binəqədi rayonundan olan böyük bir nümayəndə heyəti Cocuq Mərcanlıya səfər etdi.

Nümayəndə heyətinin tərkibində Binəqədi Rayon İcra Hakimiyyətinin, YAP Binəqədi Rayon Təşkilatının, rayon Gənclər və İdman İdarəsinin rəhbər heyəti, M.Ə.Rəsulzadə və Binəqədi rayon bələdiyyələrinin sədrləri, rayonda fəaliyyət göstərən bir neçə sahibkar, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon idarəsinin nümayəndəsi və Aprel şəhidləri Fəxrəddin Qurbanlının və Emin Bağırovun valideynləri iştirak edirdilər.

Nümayəndə heyəti səfər çərçivəsində ilk öncə Aprel şəhidlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək əklil qoymuşlar.

Daha sonra nümayəndə heyəti Cocuq Mərcanlıda yeni inşa olunmuş 96 şagird yerlik məktəblə tanış olaraq məktəbə hədiyyələr, yeni tədris ilində məktəbə gedəcək şagirdlərə məktəbli geyimləri, idman formaları və avadanlıqları, məktəb ləvazimatları, surətçıxarma aparatı təqdim etmiş, ibtidai hərbi hazırlıq fənni üzrə sinif otağını xüsusi ləvazimatlarla və digər zəruri avadanlıqlarla təchiz etmişlər.




Məktəblə tanışlıqdan sonra Binəqədi rayonu nümayəndə heyəti kənd sakini Oqtay Həziyevin evində olaraq ailə ilə səmimi söhbət etdilər. Görüşün sonunda ailəyə Binəqədi rayon İcra Hakimiyyəti tərəfindən hədiyyələr təqdim olundu.

Səfər çərçivəsində nümayəndə heyəti Prezident İlham Əliyevin tapşırığına əsasən Cocuq Mərcanlı kəndində inşa edilmiş məscidlə yaxından tanış oldular. Məlumat üçün bildirək ki, 50 sot ərazidə inşa edilən məscidin minarələrinin hündürlüyü 26 metrdir. Azərbaycan və Şərq memarlığının nadir incilərindən sayılan tarixi Şuşa məscidinin bənzəri olan bu dini ibadətgahda dindarlar üçün hər cür şərait yaradılıb.

Bu müqəddəs ocağın inşası işğalçı Ermənistana və beynəlxalq aləmə bir mesajdır. Bu, bir daha dünyaya bəyan edir ki, Azərbaycan İslam dünyasının bir parçasıdır, öz tarixi keçmişinə sadiqdir. Cocuq Mərcanlıda Şuşa məscidinin bənzərinin inşası həm də o deməkdir ki, gün gələcək Şuşadakı məscid də bərpa ediləcək. Məscidin tikilməsi, həmçinin 2017-ci ilin ölkəmizdə ”İslam Həmrəyliyi İli” elan edilməsinə dəyərli töhfədir. Ziyarət zamanı məscidə elektron quran hədiyyə edilmişdir.

Cəbrayıl Rayon İcra Hakimiyyəti Başçısının müavini Fəridə xanım İbayeva nümayəndə heyətini Cəbrayılın bir parçası olan Cocuq Mərcanlıda salamlamaqdan məmnun olduğunu bildirdi. Onlara göstərdikləri diqqətə görə məktəb kollektivi , qəsəbə sakinləri adından minnətdarlığını bildirdi.Bu səfəri ölkə rəhbərliyinin Cocuq Mərcanlıya olan diqqət və qayğısının təzahürü kimi qiymətləndirdi.Cəbrayıl RTŞ metodiki kabinetinin müdiri Əbülfəz Əhmədov, Qabaqcıl təhsil işçisi Hidayət Səfərli və başqaları da çıxış edərək belə səfərlərin əhəmiyyətindən danışdılar.

Binəqədi Rayonu İcra Hakimiyyəti başçısının müavini Aygün xanım Əliyeva, YAP Binəqədi Rayon Təşkilatının sədri Ramiz Göyüşov, 283 saylı tam orta məktəbin direktoru Tünzalə xanım Zeynalova və başqaları çıxış edərək səmimi qarşılandıqları üçün təşəkkürlərini bildirdilər.Qeyd etdilər ki, bu səfərlər davamlı olacaq, Binəqədililər Cocuq Mərcanlıya səfərlərini bundan sonra da davam etdirəcəklər.

Səfərin sonunda nümayəndə heyəti Ermənistan silahlı qüvvələri tərəfindən Füzuli rayonunun Alxanlı kəndində törədilən cinayət nəticəsində həlak olmuş Zəhra Quliyeva və onun nənəsi Sahibə Allahverdiyevanın məzarını ziyarət edərək gül qoymuşlar.

Yeni tədris ili ərəfəsində Binəqədi rayon nümayəndə heyətinin Cocuq Mərcanlıya səfəri xoş təəssüratlarla yekunlaşdı.

***

**Bilik Fondunun Cocuq Mərcanlıya səfəri**

12 sentyabr 2017-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun nümayəndə heyəti Cocuq Mərcanlı kəndinə səfər edib.

”İşğaldan azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il yanvarın 24-də imzaladığı Sərəncamdan sonra Bilik Fondu Cocuq Mərcanlı kəndində inşa olunmuş orta məktəbin kitabxanası üçün kitabların toplanılması aksiyasına başlamışdır.



Səfər zamanı aksiya nəticəsində Fond tərəfindən toplanmış ümumilikdə 1000 nüsxədən çox kitab yeni dərs ilində fəaliyyətə başlayacaq kənd məktəbinin kitabxana fondunun zənginləşdirilməsi məqsədi ilə kitabxanaya hədiyyə olunmuşdur.

Nümayəndə heyəti Cocuq Mərcanlı kənd məscidində də olmuş, Fondun ”Məscid kitabxanası” layihəsi çərçivəsində məscidə kitablar hədiyyə etmişlər.

***

**”İdrak” liseyi Cocuq Mərcanlıda**

”İdrak” liseyinin müəllim heyəti və şagirdləri Cocuq Mərcanlı kəndinə səfər ediblər

Səfər iştirakçıları əvvəlcə aprel döyüşləri zamanı qəhrəmancasına həlak olmuş şəhidlərin əziz xatirəsini anaraq ”Lələtəpə” abidəsini ziyarət edib, daha sonra Novruz Aslanov adına Cocuq Mərcanlı kənd tam orta məktəbinin kollektivi ilə görüşüblər.

Görüş zamanı ”İdrak” liseyinin direktoru Mönsüm Alışov çıxış edərək bildirib ki, aprel döyüşlərində Azərbaycan əsgərinin göstərdiyi şücaət, qazandığı qələbə xalqımızda böyük ruh yüksəkliyi yaratdı, ordumuzun qüdrətini bir daha nümayiş etdirdi.

Qeyd olunub ki, Prezident İlham Əliyev işğaldan azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb və məhz dövlət başçısının xüsusi diqqəti nəticəsində qısa müddətdə kənddə böyük quruculuq işləri həyata keçirilib. Mönsüm Alışov məktəbin rəhbərliyini və pedaqoji kollektivi 5 oktyabr - Beynəlxalq Müəllimlər Günü münasibətilə təbrik edib, onlara bu şərəfli işdə nailiyyətlər arzulayıb.

”İdrak” liseyinin pedaqoji heyətinin nümayəndələri səfər zamanı həmkarları ilə fikir mübadiləsi aparıb, liseyin şagirdləri öz yaşıdları ilə həmsöhbət olub, dərslərdə iştirak ediblər.

Daha sonra ”İdrak” liseyi adından gətirilmiş çoxsaylı dərs vəsaitləri, bədii ədəbiyyat, kompüter və proyektorlar məktəbə hədiyyə edilib.

Mönsüm Alışov bu əməkdaşlığın davamlı olacağını, ”İdrak” liseyinin Cocuq Mərcanlı məktəbinə daim metodiki kömək göstərəcəyini, vaxtaşırı görüşlər, təlimlər, müxtəlif birgə layihələr həyata keçiriləcəyini, bu tədris ocağının ”İdrak” liseyinə məxsus mediadərslər bazasından faydalanacağını deyib.

Sonda Cocuq Mərcanlı kənd orta məktəbinin direktoru Zamin Həziyev ”İdrak” liseyinin rəhbərliyinə, qonaqlara minnətdarlığını bildirib.




***

**Oktyabrın 5-də Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun təşkilatçılığı ilə bir qrup alim, jurnalist, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbələri Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində olub, 5 oktyabr - Beynəlxalq Müəllimlər Günü münasibətilə Novruz Aslanov adına kənd tam orta məktəbinin kollektivi ilə görüş keçiriliblər.**

Görüşdə Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun təhsil şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Qətibə Vaqifqızı, Bakı Dövlət Universiteti jurnalistika fakültəsinin dosenti, filologiya üzrə fəlsəfə doktoru Sevinc Əliyeva dövlətin uğurla həyata keçirdiyi dil və təhsil siyasətinin prioritet istiqamətlərindən danışıb, insan kapitalının formalaşmasında orta məktəbin xüsusi rola malik olduğunu vurğulayıblar.

Prezident İlham Əliyevin ”İşğaldan azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı tədbirlər haqqında” 2017-ci il 24 yanvar tarixli Sərəncamını xatırladan alimlər qısa müddətdə kənddə aparılan tikinti-quruculuq işlərinin əhalinin həyat səviyyəsinin yüksəlməsinə təkan verdiyini və digər ərazilərimizin də tezliklə işğaldan azad ediləcəyinə inamı artırdığını deyiblər.

Görüşdə, həmçinin müəllimlərə Bilik Fondunun bayram təbriki çatdırılıb və hədiyyələr təqdim edilib. ADMİU-nun tələbələri məktəbin kitabxanasına nəşrlər bağışlayıblar.

Cəbrayıl Rayon Təhsil Şöbəsinin müdiri Validə Həsənova bütün müəllimləri peşə bayramı münasibətilə təbrik edib, Bilik Fonduna Cocuq Mərcanlı məktəbinə ayırdığı xüsusi diqqətə görə minnətdarlığını bildirib.

Sonra məktəblilər vətənpərvərlik mövzusunda şeirlər söyləyiblər. ADMİU-nun tələbələri isə xalq mahnıları ifa ediblər.

***




**Türkiyə və Azərbaycan İş Adamları və Sənayeçilər İctimai Birliyinin (TÜİB) təşkilatçılığı ilə oktyabrın 8-də Cəbrayıl rayonunun işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndində yerli sakinlərə dəstək məqsədi ilə ”Çərpələng şənliyi” keçirilib.**

Tədbir Türkiyənin Azərbaycandakı səfirliyinin və qardaş ölkənin iri şirkətlərinin yaxından dəstəyi ilə reallaşıb. Tədbirdə Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral, TÜİB-ə üzv olan sahibkarlar və şirkətlərin nümayəndələri ailələri ilə birlikdə iştirak ediblər. Qonaqlar ”Aprel şəhidlərinə xatirə” abidəsini ziyarət edib, şəhidlərin ruhuna ehtiramlarını bildiriblər.

Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov qonaqları salamlayıb, Cocuq Mərcanlıda təşkil olunan tədbirə görə minnətdarlığını bildirib.



Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral sakinlər qarşısında çıxış edərək, Türkiyənin daim onların yanında olduğunu bildirdi. Qeyd etdi ki, sizlər işğaldan azad edilmiş ata-baba torpaqlarınıza dönməklə qəhrəmanlıq nümayiş etdirmisiniz. Biz də türkiyəli qardaşlarınız olaraq sizə dəstək olmaq istəyirik. Biz iki dövlət, bir millətik. Bizim dilimiz və dinimiz birdir. Yaxşı gündə də, pis gündə də biz bir yerdəyik. Azərbaycan gözəlləşdikcə, inkişaf etdikcə biz qürur duyuruq. Çünki Türkiyənin gücü Azərbaycanın gücü, Azərbaycanın gücü isə Türkiyənin gücüdür.

Sonra qonaqlar Cocuq Mərcanlı kənd orta məktəbi ilə tanış olublar. TÜİB üzvləri tərəfindən ”Cocuq Mərcanlıya 1000 kitab da bizdən” şüarı ilə keçirilən aksiyada toplanan kitabların ilk hissəsi məktəbin kitabxanasına təqdim edilib.



Tədbirdə Türkiyənin Azərbaycandakı səfirinə Cəbrayıl rayonu haqqında kitablar hədiyyə olunub.

Sonra türkiyəli qonaqlar kənd sakini Oqtay Həziyevin evinə gəliblər. Bildirilib ki, Həziyevlər ailəsi təhlükəli olmasına baxmayaraq, 1994-cü ilin aprelindən kənddə yaşayır və bütün məcburi köçkünlərə nümunə olmaqla yanaşı, əsl vətənpərvərlik və fədakarlıq göstərir.

Məktəbin idman meydançasında keçirilən ”Çərpələng şənliyi” Cocuq Mərcanlı sakinlərində, xüsusən də uşaqlarda əsl bayram əhval-ruhiyyəsi yaradıb. Səmaya çərpələnglər uçurdulub, müxtəlif oyunlar, yarışlar, əyləncəli proqramlar təşkil edilib, uşaqlara hədiyyələr verilib. Sehrbazın fokus və illüziyaları uşaqların marağına səbəb olub.

Səfər çərçivəsində TÜİB-in üzvləri olan Türkiyənin dünya şöhrətli ”DünyaGöz” xəstəxanasının Bakıdakı nümayəndəliyi tərəfindən yerli sakinlər üçün pulsuz göz müayinəsi, ”Türk-Amerikan Medikal Center” tərəfindən ”Sağlamlıq müayinəsi” təşkil edilib. ”

Qonaqlar Cocuq Mərcanlı kəndində tikilən Şuşa məscidinin bənzəri olan məscidə də gəliblər. Diqqətə çatdırılıb ki, bu müqəddəs ocağın inşası işğalçı Ermənistana və beynəlxalq aləmə bir mesajdır. Bu, bir daha dünyaya bəyan edir ki, Azərbaycan İslam dünyasının bir parçasıdır, öz tarixi keçmişinə sadiqdir. Cocuq Mərcanlıda Şuşa məscidinin bənzərinin inşası həm də o deməkdir ki, gün gələcək Şuşadakı məscid də bərpa ediləcək.

Səfər zamanı ”TÜİB Cocuq Mərcanlıya Dəstək Qrupu” işləri çərçivəsində həyata keçirilən torpaq analizlərinin nəticələri və Cocuq Mərcanlıda həyata keçiriləcək layihələr yerli sakinlər və maraqlı tərəflərlə müzakirə olunub. Bildirilib ki, Türkiyənin iş adamları uzun illərdən bəri istifadəsiz qalmış əkinə yararlı torpaqların yenidən əkin dövriyyəsinə qatılmasına və kənd təsərrüfatının önəmli sahələrindən biri olan heyvandarlığın inkişaf etdirilməsinə, sakinlərin iş vərdişlərinin və yaşayış imkanlarının bərpasına dəstək verəcəklər.

***HİDAYƏT SƏFƏRLİ***
***”Xudafərin” qəzeti baş redaktorunun müavini***



# YAP Cəbrayıl rayon təşkilatının IX konfransı









**Oktyabrın 12-də YAP Cəbrayıl rayon təşkilatının IX konfransı keçirildi.Konfransdan əvvəl qonaqlar və YAP Cəbrayıl rayon təşkilatı İdarə Heyətinin üzvləri Heydər Əliyev adına mədəniyyət və istirahət parkında Ulu Öndərin abidəsini ziyarət edib, önünə gül-çiçək dəstələri qoydular.**




Sonra konfrans Cəbrayıl rayonundan olan məcburi köçkünlərin məskunlaşdığı 4 saylı qəsəbə klubunda öz işinə başladı.

Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsi ilə başlayan konfransı YAP Cəbrayıl rayon təşkilatının sədri Arif Fərzəliyev açıq elan edərək geniş hesabat məruzəsi ilə çıxış etmişdir.

A.Fərzəliyev qeyd etmişdir ki, YAP-ın yaranmasının 25 illiyi ərəfəsində keçirilən konfransımız Ulu öndərimiz Heydər Əlirza oğlu Əliyevin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyası bu gün ölkəmizin ictimai-siyasi həyatının aparıcı qüvvəsinə çevrilərək regionun ən iri və ən güclü siyasi partiyalarından biri olmuşdur. Heydər Əliyev ideyalarını özünün ideoloji və siyasi mübarizəsinin əsas silahı kimi mənimsəyən Yeni Azərbaycan Partiyası ötən 25 il ərzində bir çox uğurlara imza atmışdır. Partiyamızın sıraları genişlənək 700 mini ötmüş, beynəlxalq nüfuzu artaraq möhkəmlənmişdir. Yeni Azərbaycan Partiyasına Prezidentimiz İlham Əliyevin rəhbərlik etməsi, onun yorulmaq bilməyən titanik fəaliyyəti, partiyamızın inkişafının və qazandığı uğurların əsasını təşkil etdiyini bildirmişlər. Azərbaycanın müstəqillik dövründə bu müddət ərzində ölkəmiz bir çox ciddi sınaqlarla üzləşmiş, tariximizin ən ağır, ən faciəli hadisələrini yaşamışdır. Xalqımızın böyük oğlu, Ulu öndər Heydər Əlirza oğlu Əliyevin titanik zəhməti, müdrikliyi və uzaqgörənliyi səyasində respublikamız bu sınaqlardan şərəflə çıxmış, bu gün dünyanın inkişaf etmiş ölkələri sırasında layiqli yerini tutmuşdur.

YAP sədrinin hesabat məruzəsi dinlənildikdən sonra nəzarət - təftiş qrupunun məlumatı dinlənilmişdir.

Hesabat məruzəsindən sonra çıxış edən YAP Cəbrayıl rayon təşkilatının fəalları - İnqilab Quliyev, Validə Həsənova, Əli Məmmədli, Kamılxan Rüstəmova, Məhəmmədəli Mehdixanlı və başqaları təşkilatın ötən dövr ərzindəki fəaliyyətini qənaətbəxş hesab etdiklərini bildirdilər.



Konfransda YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, YAP Mərkəzi Aparatının məsul işçisi Ramil Mirzəyev, Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov və Milli Məclisin deputatı Astan Şahverdiyev iştirak edirdilər.

Konfransda YAP rayon təşkilatı adından şəxsən cənab Prezident tərəfindən I dərəcəli "Əmək" ordeni ilə təltif olunmuş və 24 il Cocuq Mərcanlıda atəş altında yaşayan Oqtay Həziyevə, habelə partiya fəallarından Hüseyn Əhmədov, Əli Kazımov, Şakir Əlifoğlu, Rəşad Quliyev və Mahmud Musayevə Fəxri Fərmanlar təqdim olundu.

Konfransda daha sonra təşkilati məsələlərə baxılmışdır. Konfrans YAP Cəbrayıl rayon təşkilatının 9 nəfərdən ibarət idarə heyətini, 27 nəfərdən ibarət Şura üzvlərini və 5 nəfərdən ibarət nəzarət-təftiş qrupunu seçmişdir. Arif Fərzəliyev yenidən yekdilliklə YAP rayon təşkilatının sədri seçildi.

Konfransın sonunda Cəbrayıl rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov çıxış etdi, Yeni Azərbaycan Partiyasının bu gün ölkədə mütəşəkkil bir qüvvəyə çevrildiyindən, rayonumuzun bu sıradakı təmsilçilərinin də rayonda və ölkəmizdə aparıcı mövqedə olmalarından danışdı. YAP rayon təşkilatının bundan sonrakı fəaliyyətinə də uğurlar arzuladı.

Sonda Dövlət Himnimizin sədaları altında konfrans öz işini yekunlaşdırdı.

**Ş.Albalıyev**





# İkiqat dünya çempionu, ikiqat Avropa çempionu



**Ümummilli Liderimiz Heydər Əliyevin ölkəmizdə idmanın inkişafına göstərmiş olduğu diqqət və qayğı bu gün də ölkə prezidenti İlham Əliyev cənablarının və ölkəmizin vitse-prezidenti Mehriban xanımın daim diqqəti və nəzarəti altındadır. Elə bu davamlı qayğının nəticəsidir ki, ölkəmiz dünyada idman ölkəsi kimi tanınır, bir sıra mötəbər və nüfuzlu idman yarışlarına ev sahibliyi edirik.**














İdmanın bütün növlərində olduğu kimi, karate üzrə də ölkəmiz dünya və Avropa çempionatlarında uğurla təmsil olunur, Dövlət Bayrağımız idman arenalarında daha yüksəklərdən dalğalanır, Dövlət Himnimiz qalibiyyət simfoniyası kimi səsləndirilir.



Dövlət Himnimizi və Bayrağımızı belə mötəbər yarışlarda səsləndirmə və ucaltmaq şərəfinə nail olmuş həmyerlilərimizdən biri də İmran Tahir oğlu Quluzadədir. O, dörd dəfə belə şərəfə sahib olmuşdur. İki dəfə Avropa yarışlarında, iki dəfə də dünya kuboku yarışlarında belə yüksək uğurlara imza atmış İmran Quluzadə əslən Cəbrayıl rayonunun Qazanzəmi kəndindəndir. Qeyd edim ki, onun atası Tahir də Qarabağ döyüşlərinin canlı iştirakçısı olub, hazırda müharibə əlilidir. Bu məqamı önə çəkməkdə məqsədim odur ki, atasının döyüşlərdə göstərdiyi fədakarlığı övladı idman yarışlarında uğurla davam etdirib.

Quluzadə İmran Tahir oğlu 19 aprel 1995- ci ildə Bakı şəhərində anadan olub. 2001-2012- ci illərdə Səbail rayonundakı şəhid Etibar Əliyevin adını daşıyan 162 saylı orta məktəbdə təhsil alıb. 2013-2015-ci illər Lənkəranda Milli ordu sıralarında olub. Hərbi xidmətdə fərqləndiyinə görə dəfələrlə komandirindən Fəxri Fərmanlar alan İmran daim idmanla məşğul olub, öz bacarığını karatedo idman növü üzərində uğurla sınaqdan keçirib. O, hələ orta məktəb dövründə VI dan qara kəmər ustası olan Əhməd Hətəmovun məşqləri altında yüksək idman təlimləri alıb. Hətta qara kəmər də qazanıb. Belə ki, o, 15 may 2010-cu ildə Bakı şəhərində keçirilən seminarda fəal iştirak edib və göstərdiyi idman bacarığına görə VI dan qara kəmər ustası Əhməd Hətəmovun imzası ilə də Azərbaycan Ənənəvi Karate-Do Federasiyası tərəfindən I DAN- a layiq görülüb. Bundan başqa Quluzadə İmran Tahir oğlu 10-12 sentyabr 2010- cu ildə Baku Open beynəlxalq turnirində 1- ci yeri tutub.

Orta məktəb illərində qazandığı bu göstəricilər onu daha da ruhlandırıb, qarşısına daha böyük





məqsədlər qoyub, idman nailiyyətlərini genişləndirməyə qərar verib. İçində gəzdirdiyi bu arzular zaman-zaman öz bəhrəsini verib. Belə ki, o, indiyədək 2 dəfə Avropa çempionu, 2 dəfə də Dünya çempionu kimi yüksək titullara layiq görülüb. 22-24 noyabr 2012-ci ildə Avstraliyanın Sidney şəhərində 16-17 yaşlılar arasında keçirilən karate yarışlarında həmyaşıdlarından daha da güclü olan İmran Quluzadə həyatında ilk dəfə dünya birinciliyinin sahibi olur. Sevincinin həddi-hüdudu olmur. Uzaq Avstraliyada bu möhtəşəm uğuru münasibətilə Dövlət Himnimiz səsləndirilir, Dövlət Bayrağımız ən ucada dalğalandırılır. Bu, əlbəttə, karateçimizin yaddaşına əbədilik yazılır və bu idman yarışını yeniləmək üçün öz üzərində müntəzəm olaraq işləyir. Bunun da məntiqi davamı kimi 2015- ci ilin oktyabrında İstanbulda keçirilən Avropa çempionatında 60 kq kişilər arasında 1- ci yerin sahibi olub, ilk Avropa çempionluğunu qazanır.



Beləcə, həm dünya çempionu, həm də Avropa çempionu kimi yüksək idman mükafatlarına yiyələnən İmran bunlarla da kifayətlənmək istəmir. Qarşısına daha böyük məqsədlər qoyur, bu çempionluqları yeniləmək əzmində olur. Bu da bir ildən sonra öz nəticəsini 11-13 noyabr 2016- cı ildə Gürcüstanın Batumi şəhərində keçirilən növbəti Avropa çempionatında göstərir. O, ikinci dəfə Avropa çempionu adını qazanır. Demək, ard-arda iki il dalbadal Avropa çempionu adını almaqla ölkəmizi idman aləmində layiqli təmsil edən İmran Quluzadə öz arzularının işığı ilə daha da irəliləməyi qərara alır. Öz-özünə: ”Avropa çempionu adını ikinci dəfə yeniləmişəmsə, niyə də dünya çempionu adını təzədən təkrarlamayım?” sualı ətrafında düşünür və axır ki, bu arzusuna da qətiyyəti sayəsində nail olur. Belə ki, karate ölkəsi kimi tanınan Uzaq Şərqdə - Yaponiyada 18-19 avqust 2017-ci ildə kişilər arasında keçirilən karate üzrə yarışlara qatılır. İmranın əzmkar mübarizəsi burada da öz nəticəsini verir. Beləliklə, Yaponiyada Dünya kubokuna yiyələnməklə o, ikiqat dünya çempionu olur.

Bu kimi idman zəfərlərindən ruhlanan İmran Quluzadə ilə söhbət zamanı bildirdi ki, bunlar hələ son deyil. Hələ qarşıda onu çoxlu idman yarışları gözləyir. Gələn il Portuqaliyada keçiriləcək Avropa çempionatında da iştirak edəcəyini və oradan da kubokla geri qayıdacağına əminliyini ifadə etdi.

Biz də həmyerlimizin növbəti uğurlarına inamla gözümüzü dikirik və ondan layiqli qələbələr gözləyirik.

**Əlifoğlu Şakir**





# "Xudafərin-85"

# HƏMİŞƏ CAVAN

Bu il Cəbrayıl rayon qəzetinin birinci nömrəsinin çapdan çıxmasının 85 yaşı tamam olur. Qəzet 1932-ci ildə ”Lenin bayrağı” adı ilə nəşrə başlayır. İlk nömrədən başlayaraq rayonun ictimai-siyasi həyatını, işıqlandırır, kənd təsərrüfatının inkişafında yaxından iştirak edir. Qəzetin fəaliyyətə başladığı dörd ili barədə arxivimdə, yaddaşımda heç bir məlumat yoxdur. 1936-cı ilin yanvar ayından indiyə kimi arxivimdə olan qəzetlər haqqında, yaddaşımdakı qeydlər, yaşlı ziyalılardan eşitdiklərim barədə bəzi məlumatları bu yubiley ilində oxuculara çatdırmağı özümə borc bilirəm.

1936-cı ildə çıxan bir neçə nörə qarşımdadır. Cəbrayıl Rayon Firqə Komitəsinin və RİK-nin orqanı kimi çıxan qəzetin redaktoru Bilal Əhmədovdur. O, Soltanlı kəndində doğulub boya-başa çatmış, ömrünün axırına kimi də orada yaşamışdır. Onu şəxsən tanıyırdım. Hər dəfə kəndə yolum düşəndə həmkar kimi onu tapıb xeyli söhbət edirdim. Onun maraqlı söhbətlərindən doymaq bilmirdim. Söhbətimiz əsasən qəzet barədə olurdu. O vazt qəzetin çıxarılmasında yaranan çətinliklərdən və bu çətinliklərə qalib gəlməsindən faktlarla danışırdı. Ondan aldığım bəzi məsləhətlərə işimdə əməl edirdim. Allah ona rəhmət eləsin, əsil ziyalı idi.

”Passivlik bolşevizmə yabançıdılır” ümumi başlığı bir neçə nömrədə verilmişdir. Müxtəlif nömrələrdə dərc olunmuş məktubları oxuduqca bol kənd təsərrüfatı məhsullarının inkişaf etdirilməsində qəzetin misilsiz rolu olduğunu görürük. Yaxşı işlərlə yanaşı nöqsanlara yol verən kolxozlardan yazılar da dərc olunurdu. ”Horovlu” kolxozunda yol verilmiş nöqsanlardan bəhs edən məktuba belə bir başlıq qoyulmuşdur: ”Horovlu kolxozu tezliklə biabırçılıqdan çıxmalıdır.”

Böyük Vətən müharibəsi dövründə qəzet arxa cəbhə ilə yanaşı ön cəbhəyə də geniş yer vermişdir. Düşmənlərə qarşı amansızcasına mübarizə şüarları qəzetin baş yazısına çevrilmişdir. Nömrələrdə Stalinin portret şəkilləri verilirdi. Qadınlar müharibəyə gedən ərlərin, oğulların işlərini görürdülər. Bununla yanaşı yun əlcək, corab da toxuyub cəbhəyə göndərirdilər. Bunlar barədə demək olar ki, qəzetin hər nömrəsində yazılar verilirdi.

”Əmək cəbhəsində hünərlə çalışmalıyıq”, ”Vətənin çağırışına səs verməyə hazırıq”, ”Hər şey cəbhə üçün, hər şey qələbə üçün” və başqa bu kimi şüarlar insanları səfərbərliyə, düşmənlə mərdliklə vuruşa, qələbəyə səsləyirdi. Bunlarla yanaşı müntəzəm olaraq qəzetin səhifələrində zəhmətkeşləri bol məhsul istehsal etməyə ruhlandıran yazılar verilirdi.

Yuxarıda dediklərimi qəzetin müxtəlif nömrələrində dərc olunan məktublardan nəql etsəm də, 1960-cı ildən sonrakı dövrü yaxşı xatırlayıram. ”Lenin bayrağı”nın çap olunduğu yer indi də gözlərimin qarşısındadır. Həmin binanı gənclərimiz görməsə də, yaşlılar yaxşı xatırlayırlar. Rayon mərkəzindəki nəhəng çinarın, onun dibindən axıb gedən bol sulu kəhrizin sol tərəfindəki bir mərtəbəli binada çap olunurdu. Bina olduqca yararsız və otaqları xırda idi. Sonralar həmin bina təmir olunub mərkəzi kitabxana kimi fəaliyyətə başlamışdı.

Həmin il orta məktəbin yuxarı sinfində oxuyurdum. Məktəbə gedib-gəldiyim yol bu binanın qarşısından keçirdi. Hər dəfə də bizimlə yaxınlıqda yaşayan Bəbir kişi ilə Nadiri orada görürdüm. Bir gün dərsdən çıxıb evə gələndə binanın qarşısında ayaq saxladım. Bu vaxt bayıra çıxan Nadir diqqətlə baxdığımı görüb məni yanına çağırdı. Yaxınlaşanda dərhal dilləndim:

-Səni və Bəbir dayını burada tez-tez görürəm.

O, gülümsəyərək cavab verdi:

-İkimiz də burada işləyirik, mürəttibik. Rayonumuzun qəzetini bu binada çap edirik.

Diqqətlə baxdığımı görüb məni otaqlara apardı. Qəzetdə gedən yazıların əl ilə yığıldığını, səhifələrin necə çap olunduğunu göstərib məlumat verdi. İlk dəfə onda qəzetin bu cür çətinliklə başa gəlib oxuculara çatdırıldığının şahidi oldum. Düzü, ondan sonra qəzetə marağım artdı. Məktəbdə baş verən yeniliklər, görülən tədbirlər barədə xəbərlər yazıb redaksiyaya verirdim. Mətbəədə fəhlə işləyən Nadir Novruzov sonralar Tibb İnstitutuna qəbul olub oxudu. Oranı bitirdikdən sonra Bakıda qalıb işlədi, yaxşı həkim kimi əhalinin sağlamlığı keşiyində dayandı. Allah ona rəhmət eləsin.

1962-ci ilə kimi qəzetə Bilal Əhmədov, D. Nurullayev, Ə. Əbdürrəhmanov, A. Bağırov, İ. Mahmudov, Ədil Əbilov, Şirin Məmmədov, İsrafil Mehdiyev, Xasay Əliyev, Əfsər Məmmədov ayrı-ayrı vaxtlarda redaktorluq etmişdilər.

1962-ci ildən qəzet ”Kolxozçu” adı ilə çıxmağa başlayaraq yeni binaya köçürülmüşdür. O vaxt Sov.İKP MK-nın Baş Katibi və SSRİ Nazirlər Sovetinin sədri olan Nikita Xuruşşov ölkədə islahatlar aparmağa başlamışdı. Rayonları birləşdirir, yeni idarəçilik yaradırdı.Yeni yaradılmış Cəbrayıl kolxoz-sovxoz istehsalat idarəsinə Cəbrayıl, Füzuli, Zəngilan və Qubadlı rayonları daxil idi. Azərbaycan KP MK-nın və Azərbaycan Nazirlər Sovetinin Cəbrayıl rayonlararası qəzeti olan ”Kolxozçu” həmin rayonları əhatə edirdi. Qəzetin redaktoru İnqilab Əliyev idi.

Dövlətin bu yeniliyi uzun sürmədi. 1963-cü ilin əvvəllərində Cəbrayılla Füzuli rayonları birləşdirilərək Füzuli İstehsalat İdarəsi yaradıldı. Qəzet Füzuli İstesalat İdarəsi Partiya Komitəsinin və rayon ZDS İcraiyyə Komitəsinin orqanı kimi çıxmağa başladı. Bir müddətdən sonra qəzetin redaktoru Əşrəf Mehdiyev oldu. O, rayon ZDS İcraiyyə Komitəsinin sədri vəzifəsinə seçiləndən sonra qəzet redaktor müavini Ə. Məmmədovun imzası ilə çıxarıldı.

1964-cü ilin iyul ayından qəzet ”Azərbaycan KP MK-nın və Azərbaycan Nazirlər Sovetinin Füzuli və Cəbrayıl Kolxoz-Sovxoz İstehsalat İdarəsi üzrə qəzeti” kimi nəşr olunmağa başladı. Bir il qəzet redaktor müavini Əfsər Məmmədovun imzası ilə çıxdı. 1965-ci il iyul ayında Sirac Rüstəmov qəzetin redaktoru təyin olundu. (S.Rüstəmov 15 ilə yaxın bu vəzifədə çalışmışdır). Mərkəz Füzulidə olsa da, qəzet Cəbrayılda çıxırdı.

Yuxarıda altmışıncı illərdə ilk dəfə redaksiyada olduğumu, məktublar verdiyimi qeyd etmişdim. Elə o vaxtdan da məndə jurnalistliyə həvəs oyanmışdı. Bu peşəyə yiyələnməyi qarşıma məqsəd qoydum. Orta məktəbi bitirəndən sonra sənədlərimi Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) jurnalistika fakültəsinə verdim. İmtahanlardan müvəffəq qiymətlər alsam da, müsabiqədən keçə bilmədim. Açığı, çox məyus olsam da, ruhdan düşmədim. Rayona qayıdıb hazırlaşdım, redaksiya ilə əlaqəmi kəsmədim.

İndiki kimi xatırlayıram. 1965-ci il sentyabr ayının son günləri idi. Redaksiyaya məktub aparanda redaktor S. Rüstəmovla həyətdə qarşılaşdım. O, Ali Partiya Məktəbinə oxumağa getməmişdən əvvəl qəzetin məsul katibi idi, məni yaxşı tanıyırdı.

-Yenə məktub gətirmisən?- deyə soruşdu.

-Bəli, -deyib əlimdə tutduğum yazılı vərəqi ona verdim.

O, yazını oxuyub məni otağına dəvət etdi. Xeyli məsləhət verdi. Heç yerdə işləmədiyimi biləndə dedi:

-Yazdıqların xəbərlər redaksiyada hamını razı salır. Bəlkə də gələcəyin yaxşı qəzetçisi olacaqsan. Redaksiyada korrektor yeri boşdur. Gəlsənə səni həmin vəzifəyə götürüm.

Gözləmədiyim bu xoş xəbərdən daxilən sevindim. Utanmasaydım, durub redaktoru qucaqlayardım. Sevindiyimdən dərhal cavab verə bilmədim. Bir az keçəndən sonra razılığımı bildirdim. O, sabahdan işə başlayacağımı deyib məni təbrik etdi. Yeri gəlmişkən onu deyim ki, jurnalistika sahəsində qazandığım uğurlara görə Sirac müəllimin zəhməti çox olmuşdur. Allah ona rəhmət eləsin.

Sevincimin həddi-hüdudu yox idi. Bu sevinc universitetə qəbul ola bilmədiyimə görə keçirdiyim həyəcanları arxada qoydu. Səhərə kimi yuxum ərşə çəkildi. Tezdən evdən çıxıb birbaş redaksiyaya getdim. Korrektor kimi işə başladım. Vəzifəmin nədən ibarət olduğunu məsul katib başa saldı. İlk gündən işimə məsuliyyətlə yanaşdım. Səhifələrdə gedən məktubları dönə-dönə oxuyur, hərf səhvlərini düzəldirdim. Qəzetə məqalə yazmağı da unutmurdum. İşimdən razı qalan redaktor bir neçə aydan sonra məni boşalan yerə-ədəbi işçi vəzifəsinə götürdü.

İşimə olan həvəsimə görə universitetdə əyani yox, qiyabi oxumağı qərara aldım. Belə də etdim. Qəbul imtahanlarından yüksək qiymətlər alaraq universitetin jurnalistika fakültəsinə daxil oldum. İşləyə-işləyə oxuyub universiteti müvəffəqiyyətlə qurtardım. Vəzifəm də yavaş-yavaş yüksəldi. Məsul katib, redaktor müavini oldum.

Mən redaksiyada işə başlayanda qəzetdə gedən yazılar əl şrifti ilə yığılırdı. Çətinliklər çox idi. Bir neçə ildən sonra linotip maşını alındı. Bu, işi bir az yüngülləşdirdi. Maşın elektrik enerjisi ilə işləyirdi. Metal onun qazanına tökülür, orada əriyir, məktublar lazımi ölçülərə yığılırdı. Elə ki, işıq keçdi, iş də dayanırdı. İşıq yanandan bir saat sonra metal əriyirdi. O vaxtlara baxanda indi qəzet şıxarmağa nə var. Hər şey kompüterlə həll olunur. Qəzetin nömrəsi oxuculara çatana kimi hər birimiz həyəcan keçirirdik. Günün ikinci yarısına kimi qulaqlarımız səsdə olurdu ki, indi hardansa zəng edib gedən səhvi deyəcəklər.

Bunu sübut etmək üçün bir hadisəni oxucuların nəzərinə çatdırmaq istəyirəm. Çıxacaq növbəti nömrənin məsul növbətçisi idim. Həmin nömrədə səhifənin dördündə də birinci katibin Rayon Partiya Komitəsinin plenumundakı məruzəsi gedirdi. İş vaxtından xeyli sonraya kimi səhifələri redaktor da başda olmaqla dönə-dənə diqqətlə oxuduq. Gecə saat 11-də qəzeti imzalayıb çapa razılıq verdim. Evə gələndə qəzetin bir nüsxəsini özümlə gətirdim.Yorunduğumu çıxarmaq üçün bir stəkan rəngli çay süzdüm. Gətirdiyim qəzeti qarşıma qoyub yenidən nəzərdən keçirdim. Bir də gördüm ki, elə birinci abzasda ”partiya” sözü ”portiya” kimi gedir. Gözlərimə inana bilmədim. Sözü hərf-hərf oxudum. Çayı içmədən birbaş redaksiyaya yollandım. Gözətçiyə qapını açdırıb mətbəəyə keçdim. Hardasa 700-800 nüsxə çap olunmuşdu. Çapı saxlatdırdım. Çapçı ilə köməkləşib səhvi düzəltdik. Qəzet yenidən çap olundu. Qəzet o cür çıxsaydı, birinci katib tərəfindən redaktorla məni ağır cəza gözləyərdi. Bunanla demək istəyirəm ki, qəzetdə gedən səhvə görə münasibət olduqca pis idi. İndi nəşr olunan qəzetlərdə o qədər səhvlər olur ki, adam dəhşətə gəlir.

Sovetlər dövründə rayon qəzetlərinin çıxarılmasında çətinliklər olsa da üstünlüklər də az deyildi. Qəzetə Rayon Partiya Komitəsi rəhbərlk edirdi. Verilən tənqidlərin hamısına tədbir görülürdü. Görülən tədbir barədə redaksiyaya göndərilən cavablar qəzetdə dərc olunurdu. Bəzi hallarda ciddi tənqidlər Rayon Partiya Komitəsinin büro iclasında müzakirə edilirdi. Barəsində yazılan tənqidə görə vəzifəsini itirənlər də olurdu.

Rayonlar bir olanda milis (polis) şöbəsinin Cəbrayılda müvəkkili zabit Adış Xudiyev idi. O, vətəndaşlarla rəftarında ciddi nöqsanlara yol verir, onları incidir, vəzifədən sui-istifadə edir, hətta rüşvət də alırdı. Onun əməlləri barədə redaksiyaya çoxlu şikayət məktubu daxil olurdu. Redaksiya işə qarışaraq dəqiq faktlar topladı. Deyilənlərin həqiqət olduğu sübuta yetdi. Qəzet işçilərindən üç nəfərin imzası ilə ”Xudiyevin xoxu” başlığı altında felyeton dərc olundu. Felyetona görə o, vəzifəsindən azad edildi.

Rayonun Qaracallı kəndində toyda həmişə dava düşərdi. Toylardan birində dava edənlər müəllimlər oldu. Bu, jurnalistlərin gözündən yayınmadı. Məsul katib Ə. Quliyevin yazdığı tənqidi məktub ”Vur ölsün, pulu məndə” başlığı altında dərc olundu. Məktub Rayon Partiya Komitəsinin bürosunda müzakirə edildi. Qəbul olunan qərar tədbir görülmək üçün prokurorluğa göndərildi, bir neçə nəfər müəllimin iş yeri dəyişdirildi.

Onu da deyim ki, birinci katiblərin əksəriyyəti rayon qəzetlərinə qarşı qərəzli münasibət bəsləyirdilər. Bəzi tənqidi məktublardan xoşları gəlmirdi. İmkanları olsaydı, qəzeti bağlayardılar. Amma Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin orqanı olan ”Pravda” qəzetinin qorxusundan əl-qol ata bilmirdilər. ”Pravda” rayon qəzetlərini hər vasitə ilə müdafiə edirdi. İndi nə var, kim nə qədər tənqid yazır yazsın. Kimdi onu müdafiə edən. Çünki indiki qəzetlər arxasızdır.

O vaxtlar başqa respublikanın bir rayonunda çıxan qəzetlə nömrə, səhifə mübadiləsi olurdu. Biz də bu ənənəyə qoşulduq. Estoniyanın bir rayonunda (adını xatırlaya bilmirəm) çıxan ”Auksina varpa” qəzeti ilə nömrə mübadiləsi etdik. Bizim qəzetin bir nömrəsində həmin rayondan olan məktublar, onların qəzetində isə bizim rayonumuzu əks etdirən yazılar verildi. Qəzetlər hər iki redaktorun imzası ilə dərc olundu.

Redaksiyada altı il məsul katib işlədim. Məsul katib qəzetin bel sütunu adlandırılırdı. Bu vəzifədə çalışan jurnalist qəzet çapa gedənə kimi hər şeyə məsuliyyət daşıyırdı.

# "Xudafərin-85"

# QƏZETİMİZ

O, qəzeti elə tərtibatda çıxarmalı idi ki, oxucu səhifəni açanda xüsusi zövq alsın. Bir şeyi xatırlamaq istəyirəm. Bir otağa girirsən. İçəridə tör-töküntü qörürsən. Əşyalar hara gəldi atılıb, səliqə-sahman belə yoxdur. Həmin otağa baxanda adamın könlü bulanır. Başqa bir otaqda elə səliqə-sahman yaradılıb, əşyalar elə yerləşdirilib ki, baxanda adamın qəlbi açılır. Bax, qəzet də belədir. Hər nömrənin tərtibatının zövq oxşamasına çalışırdım. Nömrələrdə verdiyim materialların bir-birini təkrar etməməsinə diqqət yetirirdim.

Bir gün respublika qəzetlərində Azərbaycan Jurnalistlər İttifaqının rayon qəzetləri arasında tərtibata görə müsabiqə keçirdiyi barədəki elanını oxudum. Müsabiqə üçün müxtəlif vaxtlarda çıxan üç qəzet göndərilməli idi. Müsabiqədə iştirak etməyi qərara aldım. Daha yaxşı tərtib olunmuş qəzetləri müsabiqə üçün göndərdim. Bir müddətdən sonra müsabiqəyə yekun vuruldu. Qaliblərin adları qəzetlərdə verildi. Qəzetimiz müsabiqədə ikinci yeri tutdu. Məsul katib kimi diplom və pul mükafatı ilə təltif olundum.

S.Rüstəmov başqa işə keçəndən sonra Ə.Şərifov redaktor oldu. O, pensiyaya çıxanda Rayon Partiya Komitəsinin birinci katibi qəzetə Bakıdan gətirtdiyi redaktor müavini Hafiz Hüseynovu redaktor təyin etdi. Bir-birimizi yaxşı tanıyırdıq. Universitetdə məndən bir kurs aşağıda oxuyurdu. İşə başladığı ilk gündən mənimlə söhbətində hələ heç bir redaksiyada işləmədiyini, qəzetlə səriştəsi olmadığını açıq etiraf edib köməkliyimi istədi. Redaktor müavini yeri boş olduğundan həmin yerə əmrimi verdi. Redaktorluqdan gedənə kimi iki vəzifə aparırdım. O, Ali Partiya Məktəbində qiyabi oxuduğuna görə demək olar ki, ilin çoxunu Bakıda keçirirdi.

Qəzetin çıxarılmasında oxucuların gücündən geniş istifadə edilirdi. İri müəssisələrdə, təsərrüfatlarda yaradılmış müxbir postlarına fəal oxucular cəlb olunmuşdular. Onlar redaksiya ilə müntəzəm əlaqə saxlayır, xəbərlər, bədii yazılar verirdilər. Oxucu məktublarına geniş yer ayırırdıq. Onların hazırladıqları müxtəlif janrlı yazılar "Oxucu məktubları" ümumi başlığı altında dərc olunurdu. Bu başlıq altında müntəzəm olaraq bir nömrə və ya qoşa səhifə verirdik.

Şakir Albalıyev, İsmayıl İmanzadə, İsmayıl Kazımov, Şahsuvar Ağakişiyev, Seymur Verdizadə, Çapar Kazımov, Qorxmaz Abdullayev, Hidayət Səfərov, Bəhram Zeynalov, Vaqif Kərimov, Nizami Süleymanov, Əbülfət Alışov, Kifayət Əliyeva qəzetlə müntəzəm əlaqə saxlayır, məzmunlu yazıları ilə çıxış edirdilər. İndi onların hər birinin müxtəlif mətbu orqanlarından səsi gəlir. Ş. Albalıyevin "Xudafərin"in redaktoru olmağı ilə fəxr edirəm.

Burda bir şeyi xatırlamadan keçmək istəmirəm. Xalq hərəkatı zamanı redaktor müavini kimi imzamla çıxan nömrələrdə, redaktor olduğum vaxtlarda İ. Kazımovun, Q. Abdullayevin və Ç.Kazımovun elə məktublarını vermişəm ki, onu özləri dönə-dönə etiraf ediblər. Həmin məktublara görə həmişə rəhbərlik tərəfindən xəbərdarlıq almışam. Məcburi köçkün düşəndən sonra onların müəllifi olduğu "Cəbrayıl və Cəbrayıllılar" adlı kitab çap edildi. Həmin kitabda məni redaktor kimi yox, xüsusi müxbir kimi yazıblar. Niyə belə etdiklərini indi də başa düşə bilmirəm. Axı onlara bir pisliyim keçməyib. Hər birinin yanında alnım açıqdır. Buna görə onları məhkəməyə verə bilərdim. Amma bunu şəxsiyyətimə sığışdırmadım. Mən buna qətiyyən heyfsilənmirəm. Ona görə ki, tarix özü hər şeyi olduğu kimi yazır. Bir də ki, belə bir qəzetin xüsusi müxbiri olmağımla da fəxr edirəm.

Rayonumuzda şer həvəskarları çox idi. Onlar redaksiyaya tez-tez şer göndərirdilər. Bunu nəzərə alaraq redaksiyanın nəzdində "Ümid" ədəbi birliyi yaradıldı. Birliyə hələ o vaxt tanınmış şair, bir neçə kitabın müəllifi, şerlərinə nəğmələr bəstələnmiş İsmayıl İmanzadə rəhbərlik edirdi. Qəzetin əməkdaşlarından Barat Mirkişiyev (Allah rəhmət eləsin), Əlirza Xələfli, bir də Əziz Musa münsiflər heyətinin üzvləri idilər. Onlar oxunan şerlərə qiymət verməklə yanaşı yazarlara dəyərli məsləhətlərini də unutmurdular. Dərnəkdə bəyənilən şerlər qəzetin "İstirahət guşəsi" səhifəsində verilirdi. Dərnəkdə iştirak edənlərin əksəriyyətinin indi neçə-neçə kitabı işıq üzü görüb. İ. İmanzadə, Ə. Xələfli, Ə.Musa Yazıçılar Birliyinin üzvüdürlər, çoxlu sayda kitabların müəllifidirlər, müxtəlif mükafatların sahibidirlər. Mirzə Mirimovun, Fərzalının və eləcə də dərnək üzvlərindən bir neçəsinin şerlər kitabı işıq üzü görüb.

Redaksiya ordu sıralarında xidmət edən gənclərimizi, Böyük Vətən Müharibəsi iştirakçılarını da unutmurdu. "Əsgəriyəm doğma Ana Vətənin" ümumi başığı ilə "Kolxozçu"nun hərbi vətənpərvərlik səhifəsi" rubrikası ilə ayda bir dəfə səhifə verilirdi. Həmin səhifədə əsgərlərin göndərdikləri yazılar, komandirlərin əsgərlərə verdikləri təşəkkür məktubları, habelə müharibə iştirakçıları barədə yazılar, onların xatirələri də dərc olunurdu.

Qəzetin adının dəyişdirilib "Xudafərin" qoyulması üçün dəfələrlə lazımi yerlərə məktubla müraciət etmişdik. Çox yazışmadan, xahişdən sonra buna nail olduq. 1990-cı il oktyabrın 2-də çıxan 111(6.251) -ci nömrəsindən qəzet "Xudafərin" adı ilə nəşr olunmağa başladı. "Xudafərin" adı ilə çıxan qəzetin ilk nömrəsi mənim imzamla getdi. Buna görə indi də fəxr duyuram.

Azğınlaşmış ermənilər torpaq iddiasına düşərək rus qoşunlarının köməyi ilə Dağlıq Qarabağın və ətraf rayonların ərazilərini zəbt edir, sakinləri öldürür, girov götürürdülər. Rayonumuzda hamı silaha sarılmışdı. Əsgər və zabitlərlə yanaşı rayon sakinləri də ərazimizi qorumaq üçün səngərlər qazır, gecə səhərə kimi keşik çəkirdilər. Polis şöbəsinin nəzdində ziyalılardan ibarət könüllü dəstə yaradılmışdı. Redaksiyadan mən, bir nəfər də başqa əməkdaş həmin dəstənin tərkibində idik. Bir əlimizdə qələm, bir əlimizdə silah çalışırdıq. Gündüz qəzetin çıxmağı ilə məşğul olur, gecələr lazımı yerlərdə dəstənin digər üzvləri ilə birlikdə keşik çəkirdik. Hətta ermənilərə qarşı döyüşdə iştirak da edirdik. Bundan əlavə, qəzetin səhifələrində cəbhədən xəbərləri, təcrübəli zabitlərin məktublarını dərc edirdik.

Respublikada Mərkəzi Komitə Prezident Aparatı ilə əvəz olunandan sonra rayon qəzeti redaksiyaları müstəqil fəaliyyət göstərməyə başladı. Redaktorları redaksiya kollektivi seçirdi. Redaksiyalar öz nizamnamələrini təsdiq edərək onun əsasında işlərini qururdular. 1992-ci ildə redaksiya kollektivinin ümumi yığıncağında redaktor seçildim. Bu vəzifədə çalışdığım bir il müddətində qəzetin daha da yaxşı, oxunaqlı çıxmasında əlimdən gələni əsirgəmədim.

Redaksiyada işlədiyim müddətdə həmişə haqqı müdafiə etmişəm. Mərdimazarlıqla işim olmayıb. Kimdənsə tənqid yazanda ilk növbədə özümü onun yerində hiss etmişəm. Yəni konkret faktlara arxalanmaqla təhqirə, acı sözə yol verməmişəm.

AXC hakimiyyətə gələndən sonra hər şey alt-üst oldu. Ona görə ki, iş bacarığı, təşkilatçılığı olmayanlar, adamlarla necə rəftar etməyi bacarmayanlar birdənbirə rəhbər işə qoyuldular. Rayona rəhbərliyi energetikə tapşırdılar. İcra başçısı Kərim Kərimov ixtisası üzrə işədiyi müəssisələrdə belə vəzifəsinin öhdəsindən gələ bilmirdi. Onun birdən-birə bu yüksək vəzifəyə gəlişi hamını təəccübləndirməyə bilməzdi.

Rəhbər vəzifəyə gəlişi münasibəti ilə onu təbrik etdim. O zaman məni mehribancasına qarşıladı. Amma işə başladığının on günü tamam olmamış məni qəbuluna çağırdı. İş otağına daxil olan kimi dedi ki, sən bizimlə bir cərgəyə qoşulub qışqırmamısan, bizimlə deyilsən, səninlə işləyə bilmərik. Kollektiv tərəfindən beş ilin müddətinə seçildiyimi, redaktorun icra aparatının iş strukturuna aid olmadığını, özüm də üç gündür məzunuyyətə çıxdığımı desəm də başa düşmədi. Həmin gün belə bir sərəncam verdi: "İşdə nöqsanlara yol verdiyinə, vəzifəsinin öhdəsindən gələ bilmədiyinə görə vəzifəsindən azad edilsin."

Nə qədər savadsız yazılmış bir sərəncam. Onun vaxtında bir nömrə qəzet belə buraxılmamışdı. Hansı işimi yoxlamışdı ki, belə bir sərəncam da imzalamışdı. İkinci tərəfdən məzuniyyətdə olan adamı işdən çıxarmağa qanun yol vermirdi. Görünür o vaxtkı savadsız, qanunu saymayan rəhbərlər hər şey edə bilirdilər. Sonralar eşitdim ki, işdən çıxmağımın bir səbəbi də onu təbrik edəndə başqa müdirlər kimi şirinlik verməməyim olub.

Vəzifəmdən azad olunduqdan sonra redaktor işlədiyim dövrdə redaksiyanın fəaliyyətini yoxlamaq üçün bir neçə nəfərdən ibarət komissiya təşkil etdi. Komissiya üzvləri ciddi yoxlama apararaq bir nöqsan belə tapmadılar. Komissiya üzvlərindən bir nəfər sonralar dedi ki, məni həbs etdirmək üçün onlardan saxta akt bağlamağı məcbur edib. Komissiya üzvləri zərrə qədər nöqsan olmayan yerdə saxta akt tərtib etməkdən qəti imtina ediblər.

Tapdanmış hüququmun bərpa olunması üçün rayon məhkəməsinə ərizə verdim. İşə baxılarkən məhkəməyə etiraz etdim. Etirazıma əsasən ali məhkəmə işi Beyləqan rayon məhkəməsinə göndərdi. Məhkəmə qanunun aliliyinə arxalanaraq 1993-cü il 23 sentyabr tarixdə saxta sərəncamı ləğv edib, "Xudafərin" qəzetinin redaktoru vəzifəsinə bərpa olunmağım barədə qətnamə qəbul etdi. Artıq o vaxt K. Kərimov həbs olunmuşdu. 28 il işlədiyim doğma qəzetdən öz ərizəmlə ayrılandan sonra redaktor Seyfəddin Əliyev oldu. O, çətinliklə də olsa, ayda bir dəfə qəzeti çıxarırdı.

İşdən çıxdıqdan sonra "İnşaatçı" respublika qəzetində çalışdım. İşləyə-işləyə yaradıcılığımı da unutmadım. Beş kitabım işıq üzü gördü. Həmin kitablarda beş povestim, xeyli hekayələrim verilmişdir. Ümumilikdə ömrümün 40 ilini qəzetçilikdə keçirmişəm.

Hörmətli oxucular, həmvətənlər. 85 il bundan əvvəl rayonumuzda "Lenin bayrağı", "Kolxozçu" və "Xudafərin" adı ilə çıxan qəzet barədə sizlərə bu çatdırdıqlarım rayonumuzun qəzeti haqqında və 28 il onun əməkdaşı olan jurnalist barədə bir xatırlatmadır.

Yazıma burada yekun vurmaq istəyirəm. İnanıram ki, rayonumuzun salnaməsi olan qəzetimizin fəaliyyətindən hələ çox yazılacaq. Bəlkə də gələcəkdə kimsə qəzetin fəaliyyətindən dissertasiya müdafiə edib alim adı alacaq. Buna da əminəm.

Həmişə cavan qəzetimiz bu gün də yaşayır, rayonumuzun tarixini yazır, sabah da yaşayaraq bu ənənəni davam etdirəcək. Bu gün onu yaşadan bu qəzetin yetirməsi, gənc alim, jurnalist Şakir Albalıyev və Rayon İcra Hakimiyyətidir. Çox keçməz ki, torpaqlarımız qaytarılar, qəzetimiz yenə öz yerində fəaliyyətini davam etdirər. Doğma qəzetimizi indiyə kimi yaşadanlara əhsən deyir, bundan sonra da yaşadanlara müvəffəqiyyətlər arzulayıram.

*Sərməst Seyidəliyev,*
*yazıçı-jurnalist, "Qızıl qələm" mükafatı laureatı.*

# Ziyalılıq nümunəsi



**Müəllimlər cəmiyyətimizin hər bir üzvünün savadlı, intellektli yetişməsi üçün əllərindən gələni əsirgəmirlər. Gənc nəslin maarifləndirilməsi, yetkin şəxsiyyət kimi cəmiyyətə təqdim olunması yolunda fədakarlıq göstərən müəllimlərimiz barədə nə qədər xoş söz söyləsək bitib dükənməz.**

24 ildən artıqdır ki, işğal səbəbi ilə böyük məhrumiyyətlər yaşayan Cəbrayıl təhsil işçilərinin bu çətinliklərə sinə gələrək əldə etdikləri uğurlar gündən -günə, ildən -ilə özünü parlaq şəkildə büruzə verməkdədir.

Bu uğurların qazanılmasında payı olan ziyalılarımızdan biri də hadisələrə obyektiv yanaşmasl, müəllim adını uca tutması, ictimai yerlərdəki davranış mədəniyyəti ilə nüfuz qazanmış Hidayət Səfərlidir. Hidayət müəllim kimi ziyalıları, təşkilatçıları cəmiyyətimizə yetərincə tanıtmaq, gənc müəllimlərə nümunə olaraq təbliğ etmək lazımdır.

Ali təhsil alıb müəllimlik peşəsi ilə ülfət bağlayan H.Səfərli əmək fəaliyyətinə başladığı ilk gündən nizam-intizama xüsusi önəm vermiş, tədris etdiyi fənnin sirlərini şagirdlərə dönə - dönə aşılamışdır. İ. Tahirov adına Mehdili kənd tam orta məktəbin direktör müavini olan Hidayət müəllim bu təhsil ocağının nümunəvi kollektivlər sırasında dayanmasında böyük xidmətlər göstərib. Sevimli şagirdləri onun dərsini səbirsizliklə gözləyir, ondan ətraflı bilgilər almağı qənimət hesab edirlər. Bu il şagirdlərindən iki nəfərinin fənn olimpiadalarının Respublika Finalına vəsiqə qazanması bunun əyani sübutudur.O, "Qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif olunub. O, 1982-ci ildən dövrü mətbuatda müxtəlif səpkili, o cümlədən təhsillə bağlı yazılarla çıxış edir.Publisistik yazıları "Xudafərin", "Qarabağa aparan yol" , "Kredo" , "Vətən səsi" qəzetlərində və s. mətbu orqanlarda dərc olunub. 2010-cu ildən Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. Bədii yaradıcılıqla məşğul olur. O, ondan artıq şeir almanaxının müəlliflərindən biridir. "Mənəviyyatın ekologiyası", "Fənayənin sualları" publisistik kitablarının həmmüəlliflərindəndir. "Yuxularımın harayı" ("Azərbaycan" nəşriyyatı , 2004) , "Qanlıcada qalan iz" ("Səda" nəşriyyatı , 2007) , "Yaşanmış ömrün işığı" (M.Mirimli ilə birlikdə , "Təknur" , 2009 ) , "Düyün düşən cığırlar " ("Təknur" , 2010 ) , "Yaddaşlarda qalan ömür"("Təknur", 2010) kitablarının müəllifidir.

**(Davamı səh. 8-də)**



Fərqanə Hidayətqızı

### Ümid ovçusu

Ovçu oldu istəyimə,arzuma,
Əlim çatmır sinəmdəki sazıma,
Bir ümidim yoxdu yazım yazıma,
Dünya mənim ümidimi ovladı.

İllər ötdü,bahar payıza döndü,
Yaşım keçdi,ömür gəncliyi gömdü,
Gözümdə sonuncu ümidim söndü,
Dünya mənim ümidimi ovladı.

Hey baxıram qaranlıqdan səhərə,
Güman dönür öz yolundan qəhərə,
Həyatı qoyuram atlı yəhərə,
Dünya mənim ümidimi ovladı.

Bu ovçunun yaman dəqiqmiş oxu,
Hədəfindən qurtarmayıbdır çoxu,
Özü tapdı gah varımı,gah yoxu,
Dünya mənim ümidimi ovladı.

### Dünya

Bilir mənim diləyimi,
Etmir yenə köməyini,
Sağollaşır gərəyini,
Çarə demir buna dünya,
"Yaşa"-deyir mənə dünya!

Taleyində bir qonağam,
İstəmir ki,ona baxam,
Çanaqda gizlənir bağam,
"Tıs"deyəndə ona dünya,
"Yaşa"-deyir mənə dünya!

Qan axıdır,qan içirir,
Lal dindirir,can köçürür,
Şöhrəti,şanı keçirir,
Süzgəcindən kimə dünya,
"Yaşa"-deyir mənə dünya!

Bahar gəlir payız üstdə,
Qönçə solur lap ahəstə,
Tikanı qoyur üst-üstə,
Çatır belə gülə dünya,
"Yaşa"-deyir mənə dünya!

Dənizinə külək dəyir,
Sahilinə ətək dəyir,
Bir ağaya başın əyir,
Bir şeytana,cinə dünya,
"Yaşa"-deyir mənə dünya!

Qəm sazına basa-basa,
Döndərirlər bizi yasa,
Gecələr uçur yarasa,
Gündüzünü verə dünya,
"Yaşa"-deyir mənə dünya!

Vəhdətində param-parça,
Zəhmətinə qaça-qaça,
Yorğanı ayaqda haça,
Bütöv olmur kəmə dünya,
"Yaşa"-deyir mənə dünya!

### Birgə qocalır

Taxta ev tikmişəm arzularımdan,
Onlar sütunların üstdə dayanır.
İmarət görünür mənə uzaqdan,
Xəyalım özümlə birgə qocalır.

Ölümə gedərkən can səsləmirəm,
Şan-şöhrət,var-dövlət heç istəmirəm,
Dəyərin özün də mən bəsləmirəm,
Dəyərim özümlə birgə qocalır.

Həm sağım,həm solum o yan,bu yandı,
Külək gücləndikcə məni yıxandı,
Hər şey qurtaranda ümid qalandı,
Ümidim özümlə birgə qocalır.

İnsafım sevgiyə hələ calaqdı,
Qəlbimdə söküklər köhnə yamaqdı,
Sevinc kədərimə təzə maraqdı,
Marağım özümlə birgə qocalır.

Qoy necə istəyir incitsin fələk,
Gözümdə işığı söndürsün mələk,
Götürüb aparram nəyinə gərək,
Gərəyim özümlə birgə qocalır.

### Yarpağın sevgisi-uzaqdan...

Güldən əvvəl bitər yarpaq çəməndə,
Ondan sonra düşər yaşıl budaqdan.
Kölgəsində qoyar onu nazəndə,
Yarpaqsa işvədən solar uzaqdan.

Zaman tapar həm baharı,həm yayı,
Sevər əlçatmaz gözəli,vüsalı,
Hey baxar gözüylə altdan yuxarı,
Gül də onu ətək sanar uzaqdan.

Cəfakeşdir toz-torpağa tərs baxar,
Yağış gülü gözyaşıyla isladar,
Sevgisinə bir yad əlin uzadar,
Görər bunu içi yanar uzaqdan.

Qəm yellərin vaxt-vədəsi gələndə,
Külək gülün ləçəyin götürəndə,
Üstünə payızın çəni çökəndə,
Dinə bilməz sakit baxar uzaqdan.

Biri gəlib dərəndə bu çiçəyi,
Aparanda ondan acı gerçəyi,
Həyatında yalan olmuş sevməyi,
Xəzan vaxtı o anlayar uzaqdan.

Özü tək saralar eşqi gözündə,
Tapdanar ürəyi ayaq izində,
Bəlkə də sevdiyi gülün özündə,
Ona aid bir şey qalar uzaqdan.

### Ortağım

Qüssə könlümdəki dərd ortağımdır,
Yamanca incidir ortağım məni.
Ömrümə çağrılmaz bir qonağımdır,
Baharda səhv salır yarpağım məni.

Qışda nəfəsimi isitmədi heç,
Arzuma bir dəstək yetirmədi heç,
Götürüb apardı,gətirmədi heç,
Harayla duymadı sorağım məni.

Həm yaxşı,həm də pis görənim olur,
Yüz yeyir,bir nəfər deyənim olur,
Həmişə qalmayır,gedənim olur,
Duzumda tapdayır qonağım məni.

Kədər yerisə də izimə tərəf,
Sözümə,yazıma gətirdi şərəf,
Bəxtimə gələndə qaldı bitərəf,
Sancdı hər durumda dalağım məni.

Damdı ürəyimə qəmin damlası,
Göl etdi qəlbimi dərdin yarası,
Hələ incitsə də bu üz qarası,
Bitirə bilməyib qorxağım məni.

# Ziyalılıq nümunəsi

(Əvvəli səh. 7-də)

"İlahi cilvə", "Həsrət yağışı" , "Ömür işığı" poemalarının müəllifi olan Hidayət Səfərli yaradıcılığının qayəsini Vətən sevgisi , yurd həsrəti , torpaq nisgili , Qarabağın düşmən tapdağından azad edilməsinə çağırış , bəşəri hisslərin tərənnümü təşkil edir .

Pedaqoji fəaliyyəti il yanaşı Cəbrayıl Rayon İcra Hakimiyyətinin orqanı olan "Xudafərin" qəzetində baş redaktor müavini vəzifəsində çalışan H.Səfərli həm də sevilən şair kimi poeziyamızda özünə layiq mövqe tutub. Hikmət və müdrikliklə yoğrulmuş şeir və poemaları onu bir istedadlı şair olaraq tanıtmışdır. Sevinc və kədər təzadları ilə köklənmiş şeirlərindəki poetik qənaətləri oxucular tərəfindən böyük rəğbətlə qarşılanır.

Hidayət müəllimlə bu dəfəki görüşümüz Biləsuvar rayonu ərazisindəki qəsəbədə, ömrünün 53-cü payızında baş tutdu. Əlimi bərk-bərk sıxaraq "xoş gəlmisiniz, buyurun əyləşin ",-dedi. Onunla simasından qəriblik , küskünlük yağan çinar ağacının altında açılmış ləziz çay süfrəsi ətrafında həmsöhbət olduq. Ağacın min bir rəngə boyanmış yarpaqları arasından bizə boylanan zəif günəş şüaları ılıq nəfəsi ilə sanki bizi salamlayırdı.

Çoxlarına zəhmli görünən Hidayət müəllim əslində ipək kimi yumşaq, uşaq kimi həssas, sadə və alicənab bir insandır. Sinəsi şairanə hikmət mücəssəməsi ilə zəngin, sözü-söhbəti kəsərli, vətənpərvər şair, yorulmaz ictimaiyyətçi olan Hidayət Səfərli ruhuma çox yaxın adamdır . Onunla söhbətimiz həmişə alınır. Bu dəfə də belə oldu:

-Saçlarını vaxtsız ağartmısan, eloğlu - deyə nəzərlərini üzümə tuşladı. Söhbətimizin bu məqamdan başlayacağını gözləmirdim. Ona görə də şairin özünün ucaltdığı söz qalasına baş vurmalı oldum :

*Əbədi nə var ki fani dünyada*
*Bulağın gözü də axır, qocalır*
*Yağışı gətirən buluddan öncə*
*Şimşəyin özü də çaxır, qocalır*

Deyəsən, məhəbbət, gözəllik acı olan söz sərrafı ona öz təbirincə cavab verəcəyimi gözləmirdi, amma simasına hopan təbəssümdən hiss etdim ki, istinadım xoşuna gəlib. Ona görə də biraz cürətləndim...

-Hidayət müəllim, düzünü desəm, heç sizin də görkəminiz yaşınıza uyğun gəlmir.Sanki uca dağların başına vaxtsız qar yağıb. Mənalı-mənalı məni süzdü:

*Hidayətəm, dərddə başım,*
*Gözlərimdə kədər yaşım.*
*Daşın könül, yurda daşın,*
*Gün deyil ki, günüm mənim.*

Cəbrayılı bütün varlığı ilə sevən bu insanın ürəyi daim yağı tapdağında inləyən yurdu ilə birgə döyünür, ata-baba ocağına od salmaq arzusu ilə alışıb yanır. Ömrünün 24 ilini yurdsuzluq acısında yaşayan şairin ümid dolu söhbətlərini dinləmək ruhuma çox böyük rahatlıq verdi. Ordumuzun gücündən, əsgərlərimizin döyüş ruhundan, Cocuq Mərcanlıya etdiyi səfərlərdən məhəbbətlə söz açan Hidayət müəllim torpaqlarımızın tezliklə azad olunacağına öz varlığı qədər inanır. Əmindir ki, növbəti doğum günlərini Ziyaratın ətəyində, öz isti ocağında qeyd edəcəkdir

Arzularınız çin olsun, Hidayət müəllim. Ömrünüzün 53-cü ilinin qədəmləri mübarək olsun. Arzu edirəm ki, yeni yaşınız sizə möhkəm can sağlığı, yeni yaradıcılıq uğurları gətirsin.

Çox böyük ehtiram hissi ilə:

**Bəxtiyar Vaqif oğlu.**
15.10.2017

# Cəbrayıl rayon prokurorunun 2017-ci ilin 4-cü rübündə yaşayış yerləri üzrə vətəndaşların qəbul vaxtları

| S/S | Yaşayış yerinin adı və qəbul yeri | Qəbul vaxtı | Qəbulu keçirən şəxs |
|---|---|---|---|
| 1. | Bakı şəhəri, Sabunçu rayonu, Zabrat qəsəbəsi, Şəhər şossesi-50, Cəbrayıl şəhəri, 22 saylı ümumi orta məktəbin fəaliyyət göstərdiyi inzibati bina. | 28.10.2017-ci il Saat: 11:00 | Prokuror Maarif Hüseynov |
| 2. | Cəbrayıl rayonu, Cocuq Mərcanlı kəndi | 10.11.2017-ci il Saat: 11:00 | Prokuror Maarif Hüseynov |
| 3. | Bakı şəhəri, Xəzər rayonu, Şüvəlan qəsəbəsi, Cəbrayıl rayonu Quycaq kənd tam orta məktəbinin fəaliyyət göstərdiyi inzibati bina. | 18.11.2017-ci il Saat: 11:00 | Prokuror Maarif Hüseynov |
| 4. | Bakı şəhəri, Yasamal rayonu, Şərifzadə küçəsi-1, Cəbrayıl şəhəri, M.Mehdiyev adına tam orta məktəbin fəaliyyət göstərdiyi inzibati bina. | 23.12.2017-ci il Saat: 11:00 | Prokuror Maarif Hüseynov |

## Elan

Cari ilin sentyabr ayından dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün "Asan İmza" elektron rəqəmsal imzanın yeni tarifinin tətbiqinə başlanılmışdır.

Dövlət müəssisələrinin büdcədən maliyyələşdirilməsi proseduru və alışların əvvəlcədən planlaşdırılması nəzərə alınaraq dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün "Asan İmza" elektron rəqəmsal imzanın əldə edilməsi və istismarı prosesini asanlaşdırmaq məqsədi ilə yeni tarif müəyyən olunmuşdur. Tarif Asan İmza Dövlət və ya bələdiyyə sertifikatının istifadəsi müddətində (3 il ərzində) başqa əlavə xərclər (aylıq abunə haqqı, aparılmış hər əməliyyata görə ödəniş) olmadan 58 manat həcmində birdəfəlik ödənişi nəzərdə tutur.

"Asan İmza" ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı mərkəzinə, www. taxes.gov.az və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

**Cəbrayıl rayon Vergilər Şöbəsi**

## Cəbrayıl RİH, YAP rayon təşkilatı və "Xudafərin" qəzeti

Misirxanov Çırağəli Lətif oğlu
Misirxanova Saniyə Abbas qızı
Məmmədova Kəklik İsmayıl qızı
Məmmədov Əlif Abbas oğlu
Quliyeva Zəri Eynulla qızı
Aslanov Sadıq Rüstəm oğlu
Əliyev Famil Allahverdi oğlu
Tağıyeva Bəyim Hikmət qızı
Əhmədov Mehralı Abdurəhman
Rəhimova Ədibə Məhəmməd qızı
Muradova Dilguşə Murad qızı
Hüseynova GüləstəYolçu qızı
Bayramov Hüseyn Mirim oğlu
Lətifova Güllü Əziz qızı
Əhmədov Bədir İbrahim oğlu
Ağayeva Sevinc Kərrar qızı
Hüseynova Zəminə Əhəd qızı
Şahkərəmov Həsən Məhəmməd
Balakişiyeva Gülüşən Ziyatxan qızı
Heydərov Akif Dəskiralı oğlu
İsmayılzadə Əli Coşğun oğlu
Qəhrəmanov Yusif İsib oğlu
Həmizəyeva Məryam Baha qızı
Hüseynova Rahilə İsax qızı
Səfərova Sədaqət Soğanverdi qızı
Əhmədov Əhməd Əli oğlu
Əhmədov Fikrət İsgəndər oğlu
Xəlilov Qurbət İslam oğlu
Hüseynov Xəlil Məhəmmədəli oğlu
Bədəlova Rəna Əbilhəsən qızı
Məmmədov Məmməd Əsəd oğlu
Məhərrəmov Oruc Səfəralı oğlu
Əliyev Xıdır Tapdıq oğlu
Əsədova Samaya Xasməmməd qızı
Quliyeva Lala Tumasqulu qızı
İbrahimov İsrafil Rəşid oğlu
Muradova Gülnaz Dadaş qızının **vəfatlarından kədərləndiklərini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.**

**Allah rəhmət eləsin!**

Baş redaktor:
**Şakir Əlif oğlu ALBALIYEV**

Qəzet Ədliyyə Nazirliyində qeydə alınıb.
**H/h:55233080000**
**kod: 200888**
**VÖEN: 9900003611**
**M/h: 013010001031**
**Kapitalbankın Cəbrayıl filialı**
**VÖEN: 8200035441**
**Ünvan: AZ 1037, Bakı şəh.,**
Mətbuat prospekti, 529-cu məhəllə
"Azərbaycan" nəşriyyatı.
**Telefon:** (051) 441-15-82

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

Materiallardakı faktların doğruluğuna müəlliflər cavabdehdir.

**Əlyazmalar geri qaytarılmır.**

Qəzet "Açıq Səma" qəzetinin kompüter mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında çap edilib.
**albaliyevshakir@rambler.ru**
**Sifariş №: 3008**
**Tiraj: 1000**